**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR ÇİN İQTİSADİYYATININ XÜSUSİYYƏTLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

İxtisas: 5310.01 – "Dünya iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri


Iddiaçı: **Xaliq Qabil oğlu Rüstəmov**


Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**İrşad Abdul oğlu Kərimov**

iqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

iqtisad üzrə fəlsəfə doktoru
**Elnur Kərim oğlu Əlizadə**

Azərbaycan Dövlət İqtisad Universitetinin bazasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının FD 1.11 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______________ əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ______________ iqtisad elmləri doktoru, professor
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir şəraitdə milli iqtisadiyyatların formalaşması və inkişafı yalnız daxili proseslərdən asılı deyil, həmçinin beynəlxalq ticarət əlaqələrindən də əhəmiyyətli dərəcədə asılıdır. Hər bir dövlətin, eləcə də Çin Xalq Respublikasının müasir çağırışlara uyğun olaraq qlobal iqtisadiyyata inteqrasiya etməsi və xarici ticarət əlaqələrini inkişaf etdirməsi müstəqil iqtisadi sistemin formalaşdırılması və iqtisadiyyatın davamlı böyüməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Çin azad ticarət münasibətlərinin inkişafına müsbət yanaşmaqla, ölkənin dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək, iqtisadiyyatın liberallaşdırılması və xarici ticarət münasibətlərinin inkişafına təkan vermək məqsədilə yeni inkişaf yoluna qədəm qoymuşdur. Çinin iqtisadi inkişafı və yüksəlişinin əsasında islahatlar və dövlət amili dayansa da, inkişafı sürətləndirən digər amillərin də tədqiqi, iqtisadi artım tempinin sürətləndirilməsi istiqamətində həyata keçirilən iqtisadi siyasətin öyrənilməsi gələcək prioritetlərin müəyyən edilməsi üçün mühüm hesab olunur. Çinin nəhəng "Bir kəmər, bir yol" təşəbbüsü və bu təşəbbüs çərçivəsində çoxsaylı investisiya layihələrini həyata keçirməsi, həm daxili, həm də beynəlxalq səviyyədə inkişafı nəzərdə konsepsiyalar qəbul etməsi, ölkənin regional birliklər və çoxsaylı iqtisadi təşkilatlarla əməkdaşlığı, ölkədə innovasiya təyinatlı iqtisadiyyatın formalaşdırılması və tədqiqat-inkişaf fəaliyyətlərinin genişləndirilməsi istiqamətlərinin diqqət mərkəzində saxlanılması və dünya bazarında ölkənin mövqeyinin daha da möhkəmləndirilməsi davamlı inkişafın əldə edilməsi üçün yeni perspektivlər açır. Dünya üzrə ikinci ən böyük iqtisadiyyata malik Çinin müasir mərhələdə regional və qlobal səviyyədə iqtisadi və ticarət əlaqələrinin xüsusiyyətlərinin öyrənilməsi, həmçinin iqtisadi göstəricilərinin dəyişən dinamikasının təhlili ölkənin qlobal iqtisadiyyatda yerinin müəyyənləşdirilməsində olduqca əhəmiyyətlidir.

Eləcə də, Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin inkişafının hər iki ölkə üçün əhəmiyyəti bu münasibətlərin müasir vəziyyətini və potensial imkanlarını müəyyən etməyi zəruri edir. Azərbaycan Respublikasının Prezidenti Cənab

İlham Əliyevin Azərbaycanın Çinlə müxtəlif sahələrdə əməkdaşlığını yüksək qiymətləndirərək Azərbaycan kimi ölkə üçün də Çində iqtisadi artımın mövcudluğunu olduqca vacib hesab etməsi, Cənab Prezidentin uğurlu siyasəti nəticəsində bugün iki ölkə arasında iqtisadi, ticarət və investisiya əlaqələrinin inkişafı, əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü siyasətin və reallaşdırılan uğurlu layihələrin ölkəmizin iqtisadiyyatı üçün əhəmiyyəti bu mövzunun öyrənilməsinin zəruriliyini şərtləndirir.

Çinin iqtisadi inkişafı modelinin üstünlükləri, ölkənin iqtisadi nailiyyətləri, Azərbaycan – Çin iqtisadi əlaqələrinin müasir vəziyyəti və gələcək inkişafına dair məsələlər bir çox tədqiqatçıların marağına səbəb olmuş, bu istiqamətdə çoxsaylı elmi-tədqiqat işləri aparılmışdır. Azərbaycanda qeyd olunan problemlərin tədqiqinə həsr olunmuş elmi-tədqiqat işlərinə akademik Z.Ə.Səmədzadə, N.Müzəffərli(İmanov), M.Quliyev, M.Manafova, E.Həbibzadə, E.Məmmədov, E.Qəribli, A.Əzimzadə və digər iqtisadçı-alimlərin əsərlərini misal göstərmək olar. Bu tədqiqat işlərində Çin iqtisadiyyatında islahatlar mərhələsi, ölkədə tətbiq olunan "Açıq qapı" siyasəti və cəlbedici investisiya mühitinin yaradılması, Çinin ticarət potensialı, "Çin iqtisadi möcüzəsi", ölkədə regional inkişaf və sosial-iqtisadi problemlər, gəlir bölgüsündə mövcud olan ədalətsizliklər, Çinin regional və qlobal səviyyədə iqtisadi əməkdaşlıq məsələləri, "Bir kəmər, bir yol" təşəbbüsü, Azərbaycan-Çin qarşılıqlı iqtisadi əlaqələri ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir. Çin iqtisadiyyatı üzrə geniş profilli tədqiqat aparan xarici iqtisadçılar sırasında D.Xudjun, M.M.Kobalev, T.Xuan, A.Posen, V.Çao, J.Chen, D.Xuedong, M.Zeng, S.S.Polonik, P.O.Yevgenevna, C.Tisdell, H.Çeştepe, M.Saray, L.Gökdemir, C.Duran, İ.Ateş, Ç.Çetin, S.Özçengel, M.Saraçoğlu və başqalarını vurğulamaq olar. Çin iqtisadiyyatı və onun xüsusiyyətlərinə dair çoxsaylı tədqiqat işlərinə rast gəlinsə də, ölkə iqtisadiyyatının dinamik inkişafı baxımından Çinin müasir mərhələdə iqtisadi inkişafının təhlili və inkişafı potensialının öyrənilməsi zəruri hesab olunur. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, mövzu aktuallığını qoruyur.

**Tədqiqatın obyekti** Çinin milli iqtisadi inkişaf modeli, digər ölkələrlə xarici ticarət və investisiya əlaqələri sistemi seçilmişdir.

**Tədqiqatın predmetini** Çin iqtisadiyyatının müasir inkişafı ilə əlaqədar xarici ticarət və investisiya əlaqələrindən yaranan iqtisadi münasibətlər, ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətliliyi və yüksək iqtisadi artımın mexanizmlərinin təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi müasir Çin iqtisadiyyatının xüsusiyyətlərinin və gələcək perspektivlərinin öyrənilməsi, Çin təcrübəsinin Azərbaycan iqtisadiyyatı üçün tətbiqi imkanlarının müəyyənləşdirilməsindən ibarətdir. Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- Çinin iqtisadi inkişaf modelinin elmi-nəzəri araşdırılması və sosial-iqtisadi islahatların nəzəri-praktiki aspektlərinin tədqiqi;
- Çin Xalq Respublikasının xarici ticarət əlaqələri üzrə inkişaf dinamikasının sistemli təhlili və xarici ticarətin ÜDM-ə təsirinin qiymətləndirilməsi;
- Çinin investisiya siyasətinin öyrənilməsi və investisiya münasibətləri üzrə əməkdaşlığın mövcud vəziyyətinin tədqiqi;
- Çində innovasiya təyinatlı rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının əsas xüsusiyyətlərinin öyrənilməsi;
- Çinin regional və beynəlxalq iqtisadi əlaqələrinin müasir vəziyyətinin təhlili və bu istiqamətdə potensial imkanların müəyyən edilməsi;
- Çində iqtisadi artıma səbəb olan amillərin araşdırılması və bu amillərin iqtisadi artıma təsirinin qiymətləndirilməsi;
- Çinin Azərbaycanla iqtisadi əməkdaşlığının mövcud vəziyyətinin təhlili və prioritet istiqamətlərin müəyyənləşdirilməsi;
- Çin iqtisadi modelinin müsbət nəticələrinin ölkəmizin iqtisadiyyatı üçün tətbiqi imkanlarının öyrənilməsi.

**Tədqiqat metodları.** Tədqiqat işinin həyata keçirilməsində bir sıra kəmiyyət və keyfiyyət metodlarından, analiz, sintez, sistemli yanaşma, riyazi və ekonometrik təhlil, qruplaşdırma, induksiya və deduksiya metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Çində yeni iqtisadi inkişaf strategiyasının tətbiqi və islahatların həyata keçirilməsi ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir

etmiş, iqtisadiyyatın planlı iqtisadiyyatdan açıq qloballaşan iqtisadiyyata çevrilməsinə zəmin yaratmışdır;

- "Sosialist bazar iqtisadiyyatı" Çinin sosialist ideologiyası və bazar iqtisadiyyatı alətlərini əlaqələndirərək unikal iqtisadi model yaratmaq hədəflərini ortaya qoymaqla, dövlətin iqtisadiyyatda strateji rolunun davam etdidiyi, lakin iqtisadi fəaliyyətdə bazar mexanizmlərinin də mühüm yer tutduğu konsepsiyadır;

- Çində xarici ticarətin inkişafı ölkənin iqtisadi inkişafına əhəmiyyətli müsbət təsir göstərmişdir və ÜDM-in cari artımında xarici ticarət müsbət multiplikativ rola malikdir;

- Birbaşa xarici investisiyalar Çində iqtisadi inkişafa əhəmiyyətli töhfə vermişdir. Ölkədə birbaşa xarici investisiyalar və Ümumi Daxili Məhsul istehsalının xalis ixrac həcminə təsiri pozitivdir. Bu iqtisadi göstəricilər arasında kointeqrasiya əlaqəsi mövcuddur;

- Çin Xalq Respublikasının həyata keçirdiyi məqsədyönlü daxili və xarici iqtisadi siyasət ölkənin sosial-iqtisadi inkişafına və qlobal iqtisadi güc mərkəzinə çevrilməsinə səbəb olmuşdur;

- Azərbaycanın Çinlə iqtisadi əməkdaşlığı, "Bir kəmər və bir yol" təşəbbüsündə tərəfdaş mövqeyinin olması ölkəmiz üçün yeni imkanlar yaradır. Gələcəkdə iki ölkə arasında ticarət, investisiya, nəqliyyat-logistika sahələrində əməkdaşlıq davam etdirilməlidir;

- Azərbaycan və Çin iqtisadi modellərində oxşar xüsusiyyətlərin mövcudluğu baxımından Çin iqtisadi modelinin müsbət nəticələrinin, xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti, innovativ istehsalın inkişafı, ixrac və innovasiyalara əsaslanan iqtisadiyyatın qurulması istiqamətləri üzrə Çin təcrübəsinin ölkəmizin iqtisadiyyatına tətbiqi imkanları mövcuddur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın müəllif tərəfindən əldə edilən əsas elmi yeniliklərini aşağıdakı kimi sistemləşdirmək olar:

- Çinin iqtisadi inkişafı modelinin elmi-nəzəri əsasları və tətbiq edilən yeni iqtisadi inkişaf strategiyasının özünəməxsus cəhətləri öyrənilərək ölkənin sosial-iqtisadi inkişafında rolu göstərilmişdir;

- Çində xarici ticarətin inkişafının Ümumi Daxili Məhsul artımına təsiri xalis ixrac funksiyası əsasında öyrənilərək, multiplikativ təsir müəyyən edilmişdir.

- Çində Ümumi Daxili Məhsul, xalis ixrac və birbaşa xarici investisiyalar arasında əlaqələr Yohansen kointeqrasiya və Granger səbəbiyyət metodları əsasında qiymətləndirilərək öyrənilmişdir;

- Çinlə Azərbaycan arasında iqtisadi əməkdaşlığın müasir vəziyyəti təhlil edilərək perspektivlər müəyyənləşdirilmiş, Çin iqtisadi modelinin Azərbaycan iqtisadiyyatı üçün tətbiqi imkanları müəyyən edilmişdir;

- Çinin qlobal iqtisadi güc mərkəzinə çevrilməsinin daxili və xarici amilləri araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əsaslarını araşdırılan mövzuya dair respublikanın və xarici ölkə iqtisadçılarının elmi əsərlərində təqdim olunmuş fundamental və tətbiqi konsepsiyalar, Çin Xalq Respublikasının qəbul etdiyi rəsmi sənədlər və normativ hüquqi aktlar, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında imzalanmış hüquqi sənədlər, eyni zamanda yerli və xarici dövrü mətbuatın materialları təşkil edir.

Tədqiqatın praktiki əhəmiyyəti - dissertasiya üzrə aparılmış tədqiqat nəticəsində sistemləşdirilmiş nəzəri-konseptual müddəalar, əldə olunmuş nəticələr, irəli sürülən tövsiyyə və təkliflər ölkələr üzrə iqtisadi inkişaf proqramları və layihələrin, inkişaf strategiyalarının hazırlanmasında, elmi-tədqiqat işlərində, bununla yanaşı ali təhsil müəssisələri üzrə tədris prosesində istifadə edilə bilər. Belə ki, tədqiqat işi nəticələrindən Bakı Dövlət Universitetinin Dünya iqtisadiyyatı kafedrasında "Çin iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər", "Beynəlxalq nəqliyyat əməliyyatları", "Beynəlxalq logistika" və digər fənlərin tədrisində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işində əks olunan müddəalar və tədqiqat işindən irəli gələn nəticə və təkliflər Azərbaycanda keçirilmiş konsfranslar, İstanbul Gedik Universiteti "3.Uluslararası İstanbul Modern Bilimsel Araştırmalar Konfransı", Portuqaliyada "I International Scientific and Practical Conference Society and science: interconnection", konfransı, Ottavada keçirilmiş "XIII International Scientific and Practical Conference Scientific research in XXI century" konfransı da daxil olmaqla, 8 beynəlxalq və 1 respublika səviyyəli konfranslarda məruzə edilmiş, əhəmiyyətli olaraq qiymətləndirilmişdir.

Dissertasiya işinin əsas mahiyyətini özündə əks etdirən və elmi cəhətdən əsaslandırılmış 6 elmi məqalə çap olunmuşdur ki, onlardan 1-i xaricdə beynəlxalq xülasələndirmə və indeksləmə bazasına daxil olan jurnalda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirdiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universiteti Dünya iqtisadiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, 9 paraqraf, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsil 81604 işarə, ikinci fəsil 74161 işarə, üçüncü fəsil 60701 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 147 səhifə və 230971 işarə təşkil edir. Dissertasiyada 15 cədvəl, 27 qrafik, 4 şəkil, həmçinin 148 istifadə olunmuş mənbənin siyahısı verilmişdir.

## MÜDAFİƏ ÜÇÜN TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1.** ***Çində yeni iqtisadi inkişaf strategiyasının tətbiqi və islahatların həyata keçirilməsi ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir etmiş, iqtisadiyyatın planlı iqtisadiyyatdan açıq qloballaşan iqtisadiyyata çevrilməsinə zəmin yaratmışdır.***

Çində planlı sosialist iqtisadiyyat mövcud olduğu halda, 1978-ci ildən sonra ölkə tənzimlənən bazar iqtisadiyyatına keçid təşəbbüsü ilə xarici ticarətini inkişaf etdirməyə başlamışdır. Həmin ildən başlayaraq ölkədə Den Syaopin tərəfindən islahatların həyata keçirilməsi nəticəsində Çin sosial-iqtisadi inkişafda görünməmiş sıçrayışa imza atmışdır və bu, ona qlobal iqtisadiyyatda super iqtisadi güc ola bilmək statusunu qazanmağa şərait yaratmışdır.

Çin iqtisadiyyatı iqtisadi islahatlardan əvvəl qapalı xarakterli iqtisadiyyat olmuş, Den Syaopinin "Açıq qapı" siyasəti nəticəsində ölkə xarici ticarətə və idxala açılmış, məhsulların ixracı təşviq edilmişdir. İxracın təşviqi istiqamətində ölkə əyalətlərinə muxtariyyət

verilməklə ticarət fəaliyyətinin idarəsini sadələşdirmək üçün ixrac məhsulları istehsal olunan müəssisələrlə əməkdaşlıq edən xüsusi ticarət şirkətləri formalaşdırılmışdır. Bu şirkətlər özlüyündə gəlir və xərcləri idarə edir, şirkətin mənfəət və zərərlərinə görə məsuliyyət daşıyırdılar. Xarici ticarətin inkişafı proqramını dəstəkləyən gömrük ödənişləri sisteminin formalaşdırılması da ixracın sürətli inkişafında effektiv təcrübələrdən biri olmuşdur. Bu sistem xammal, aralıq və investisiya məhsullarına idxal rüsumlarında endirimlər nəzərdə tutur, istehsalda istifadə olunan sərfəli enerji qiymətləri, aşağı dərəcəli vergilər Çin mallarına rəqabət üstünlüyü verir və ticarəti artırırdı.

İslahatlar prosesində aqrar sektorda da islahatlar aparılmış, eləcə də iqtisadiyyatın inkişafı və xarici investisiyaları ölkəyə cəlb etmək məqsədilə xüsusi iqtisadi zonaların yaradılması qərara alınmışdır. Xüsusi iqtisadi zonaların yaradılmasını iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən hesab edən hökumət fəaliyyətin səmərəli təşkili məqsədilə normativ-hüquqi baza yaratmış, maliyyə sistemini, gömrük və vergi mexanizmlərini formalaşdırmışdır.

90-cı illərin əvvəllərində maliyyə və vergi sistemində artan kəskin ziddiyyətlər nəticəsində büdcə gəlirlərində azalmalar müşahidə edilmiş, dövlət xərclərinin gəlirlərdən artıq olması çətinliklər yaratmışdı. Nəticədə, bank, maliyyə və vergi sistemində geniş islahatlar aparılmışdır.[1] Çin Xalq Respublikasında islahatlar prosesində birjaların yaradılması istiqamətində də mühüm addımlar atılmış, Çində kapital bazarları fəaliyyətə başlamış, ölkə üzrə maliyyə-uçot sistemində yeniliklərin tətbiqi ilə bağlı qərar qəbul edilmişdi.

2006-cı ildən islahatların tətbiqində növbəti mərhələ başlanmışdır ki, əsas ideyalar regional inkişafın təmin edilməsi, sosial-iqtisadi və ekoloji problemlərin həlli olmuşdur. Tətbiq edilən islahatlar kənd təsərrüfatı, sənaye, ticarət və xarici investisiyalarda köklü dəyişiklikləri əhatə edərək, Çinin sürətli iqtisadi inkişafı və qlobal iqtisadiyyata inteqrasiyasını təmin etmişdir. İslahatların "şok terapiyası" ilə deyil, mərhələlərlə, regional və sektoral fərqlər nəzərə alınaraq həyata keçirilməsi, Çin iqtisadiyyatını dünyanın ən güclü

---

[1] Səmədzadə, Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında / Z.Ə.Səmədzadə. – Bakı: Elm və təhsil, – 2009. – 608 s.

iqtisadiyyatlarından birinə çevirmiş, rəqabətqabiliyyətli Çin iqtisadiyyatı formalaşmış, "Çin möcüzəsi" meydana gəlmişdir.

**2. *"Sosialist bazar iqtisadiyyatı" Çinin sosialist ideologiyası və bazar iqtisadiyyatı alətlərini əlaqələndirərək unikal iqtisadi model yaratmaq hədəflərini ortaya qoymaqla, dövlətin iqtisadiyyatda strateji rolunun davam etdidiyi, lakin iqtisadi fəaliyyətdə bazar mexanizmlərinin də mühüm yer tutduğu konsepsiyadır.***

Yeni iqtisadi inkişaf strategiyası çərçivəsində Çində tətbiq edilən "sosial yönümlü bazar iqtisadiyyatı" modeli dövlət sektorunun aparıcı rolunun mövcud olduğu bazar iqtisadiyyatı modeli kimi başa düşülür. "Sosial yönümlü bazar iqtisadiyyatı" modelinin vəzifəsi ictimai mülkiyyətin mövcudluğu şəraitində bazar iqtisadiyyatına səmərəli keçid etmək olmuşdur. Bu ideologiya planlı iqtisadiyyat və bazar iqtisadiyyatını qarşı-qarşıya qoymur və xüsusi mülkiyyət şəraitində planlı iqtisadiyyatın mövcud ola biləcəyini əsaslandırırdı. Den Syaopinin iqtisadi konsepsiyasının əsasını da ideologiyaya uyğun *"Planlı iqtisadiyyat heç də sosializm, bazar iqtisadiyyatı isə heç də kapitalizm demək deyildir"* fikri təşkil edirdi.

Çin iqtisadi modelinin əsasında "dövlət müəssisələri deyil, müasir rəqabət qabiliyyətli müəssisələr sistemi yaratmaq" şüarı dayanırdı. Çin iqtisadi modelində yalnız vahid ictimai mülkiyyətin mövcud olmasının inkişafa səbəb olacağının əleyhinə olmaqla, müxtəlif mülkiyyət formalarının birlikdə mövcudluğunun zəruriliyi vurğulanırdı.[2]

Bu modelin əsas xüsusiyyətlərinə dövlətin iqtisadiyyata nəzarəti şəraitində resursların bölgüsü və istehsalın davamlılığının təmin edilməsi, dövlət mülkiyyətinin üstünlüyü şəraitində iqtisadiyyatın şaxələndirilməsi, Çin iqtisadiyyatının açıqlıq dərəcəsinin artırılması, xarici investisiyaların cəlbi prosesinin sürətləndirilməsi, sosial təminat sisteminin təkmilləşdirilməsi, dövlət müəssisələrində islahatların aparılması aid edilirdi. Çində iqtisadi idarəetmə sistemi və idarəetmə üsullarının təkmilləşdirilməsinin aparılması, digər ölkələrlə iqtisadi

---

[2] Səmədzadə, Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında / Z.Ə.Səmədzadə. – Bakı: Elm və təhsil, – 2009. – 608 s.

əməkdaşlığın genişləndirilməsi, qloballaşmanın tələbatının ödənilməsi üçün elmi istiqamətlərin və tədris işinin gücləndirilməsi, istehsalın effektivliyinin artırılmasının təmin edilməsi, islahatlara uyğun, səmərəli qanunvericilik bazasının formalaşdırılması, ölkə üzrə yoxsulluğun azaldılması, məşğulluğunun təmin edilməsi, kənd yerlərinin inkişafı, əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi kimi istiqamətlər yeni iqtisadi modelin tətbiqi ilə hökümətin əsas hədəfləri kimi müəyyən olunmuşdur. Çinin tətbiq edilən iqtisadi modeli sürətli iqtisadi artım, qlobal iqtisadiyyatda təsir gücünün artırılması, liberallaşdırma və ixracın təşviqi, ölkə iqtisadiyyatının dövlətin nəzarətində liberallaşdırılmasını nəzərdə tuturdu.

**3.** ***Çində xarici ticarətin inkişafı ölkənin iqtisadi inkişafına əhəmiyyətli müsbət təsir göstərmişdir və ÜDM-in cari artımında xarici ticarət müsbət multiplikativ rola malikdir.***

İqtisadi islahatların uğurlu nəticələri ilə Çin iqtisadiyyatı sürətlə liberallaşdırılmış, ticarət münasibətləri daha da inkişaf etmişdir. Çin dünyanın ən böyük ixracatçısı və ABŞ-dən sonra ikinci ən böyük idxalçısı olmuş, xarici ticarət həcmi artmağa başlamış, ölkə ÜTT-yə üzv olduqdan sonra artım daha da sürətlənmişdir. ÜTT-yə üzv olduqdan sonra ixracın sürətli artımı istehsal və gəlirlərin sürətli artımı ilə müşayiət olunmuşdur[3]. 2009-cu ildə Çin Almaniyanı üstələyərək dünyanın ən böyük ixracatçısı, 2014-cü ildən ixrac və idxalının cəminə görə ən böyük ticarət dövriyyəsinə malik ölkəsi olmuşdur. 2022-ci ildə Çinin xarici ticarət dövriyyəsinin həcmi 6,8 trilyon ABŞ dolları olmuşdur ki, bu, ölkə ÜDM-nin 38%-ni təşkil etmişdir.

---

[3] Çeştepe, H. Çin’in Dış Ticaretinin Gelişimi, Dünya Ticaret Örgütü’ne Üyelik Öncesi ve Sonrasında Dünya Ticaretine Etkileri // – Uluslararası Yönetim İktisat ve İşletme Dergisi, – 2012. №17, – s. 45-62.




Mənbə: https://data.worldbank.org/

**Qrafik 1. Çinin xarici ticarət balansı göstəriciləri**

Qrafik 1-də Çinin xarici ticarət balansı göstəriciləri milyard ABŞ dolları ilə verilmişdir. Çinin ixracının davamlı şəkildə idxaldan çox olması nəticəsində ölkənin ticarət balansı göstəricilərində son iyirmi il ərzində müsbət dinamika nəzərə çarpmış, ölkə illər üzrə ticarəti müsbət saldo ilə başa vurmuşdur. 2021-ci il üçün ticarət balansı 2020-ci illə müqayisədə 25,34% artaraq 462,25 milyard dollar, 2022-ci ildə 577 milyard dollar təşkil etmişdir.

Xarici ticarət dövriyyəsinin, eləcə də ixracın artımı ilə eyni zamanda ölkənin ümumi daxili məhsulu da artmışdır. Milli iqtisadiyyatlarda ixracın və ÜDM-in uzunmüddətli dövrdə müsbət dinamikada dəyişimi bu göstəricilər arasında qarşılıqlı əlaqənin mövcudluğunu ifadə edir. Çində isə xarici ticarət və ÜDM artımı arasında əlaqəni daha dəqiq müəyyən etmək məqsədilə xalis ixrac funksiyasına nəzər yetirməklə xarici ticarət multiplikatorunu hesablamaq lazımdır. Xarici ticarət multiplikatoru aşağıdakı kimidir:

$$\mu_{xar.tic.} = \frac{1}{1-b+m'} \qquad (1)$$

Burada, $b$ əmsalını istehlak xərclərinə ÜDM-in funksiyası kimi baxdıqda, (2) asılılığından tapmaq mümkündür:

$$\dot{I}ST = (\dot{I}ST)_0 + b(\ddot{U}DM) \qquad (2)$$

Burada $(\dot{I}ST)_0 -$ avtonom istehlak səviyəsini, $b$ əmsalı – istehlaka son hədd meyilliliyi ifadə edir.[4] Çin Xalq Respublikası üçün 2000-2022-ci illər üzrə statistik göstəricilərin qiymətləndirilməsi nəticəsində istehlak xərclərinin ÜDM-dən xətti asılılığının reqressiya funksiyası aşağıdakı kimi müəyyən edilmişdir:

$$\dot{I}ST = 13804823024.3 + 0.541897139787 * (\ddot{U}DM) \qquad (3)$$

(3) asılılığından istehlaka son hədd meyilliliyi $b = 0{,}54$ kimi müəyyən edilir. (1) xarici ticarət multiplikatoru düsturunda verilmiş $m'$ əmsalı isə ixraca (idxala) son hədd meyililik göstəricisi olub, xalis ixrac funksiyasından tapılır. Xalis ixracın ÜDM-in funksiyası kimi riyazi ifadəsi (4) düsturunda verilir:

$$X\dot{I}X = (X\dot{I}X)_0 - m^{/} (\ddot{U}DM) \qquad (4)$$

Burada $(X\dot{I}X)_0 -$ xalis ixracın baza səviyəsini, $m^{/}$ əmsalı – ixraca son hədd meyilliliyi ifadə edir.[5] Çin Xalq Respublikası üçün 2000-2022-ci illər üzrə statistik göstəricilərin qiymətləndirilməsi nəticəsində xalis ixracın ÜDM-dən xətti asılılığının reqressiya funksiyası aşağıdakı kimi müəyyən edilmişdir:

$$X\dot{I}X = 68015031979.9 + 0.197 * (\ddot{U}DM) \qquad (5)$$

(5) asılılığından $m^{/}$ ixraca son hədd meyillilik əmsalı 0,197 kimi müəyyən edilir. Bu göstərici müsbət olduğu üçün ixraca meyillilik kimi qəbul edilir və iqtisadi olaraq ölkədə ÜDM-in təxminən 19,7%-nin ixrac olunduğunu ifadə edir. (1) düsturuna əsasən xarici ticarət multiplikatorunu hesablayaq:

$$\mu_{xar.tic.} = \frac{1}{1-b+m'} = \frac{1}{1-0{,}54-0{,}197} = 3{,}8 \qquad (6)$$

---

[4] Həsənli, Y.H.., İmanov, Q.C.. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makroiqtisadi təhlil / Y.H.Həsənli. – Bakı: Elm, 2001. 248 s.

[5] Həsənli, Y.H.., İmanov, Q.C.. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makroiqtisadi təhlil / Y.H.Həsənli. – Bakı: Elm, 2001. 248 s..

Qiymətləndirmə nəticəsi Çində ümumi xərclər və ya investisiyaların 1 dollar artımının ixracın idxalı üstələməsi şəraitində ÜDM-i 3,8 dollar artırdığını göstərir. Burada $m^{/}$ nəzərə alınmadıqda, investisiya multiplikatoru hesablanır ki, onun nəticəsi qapalı iqtisadiyyatda investisiyaların ÜDM-ə təsirini ifadə edir:

$$\mu_{invest.} = \frac{1}{1-b} = \frac{1}{1-0{,}54} = 2{,}17 \qquad (7)$$

Qiymətləndirməmiz nəticəsində Çində idxalın ixraca bərabər olduğu vəziyyətdə, ümumi xərclər və ya investisiyaların 1 dollar artımının ÜDM-i 2,17 dollar artırdığı nəticəsi alınır. Ancaq ticarətdə müsbət balansın mövcudluğu ÜDM həcminin daha çox artımına səbəb olmaqla, multiplikativ effekt yaradır. Qeyd edə bilərik ki, Çində xarici ticarət ÜDM-in artımında müsbət multiplikativ rola malikdir.

**4. *Birbaşa xarici investisiyalar Çində iqtisadi inkişafa əhəmiyyətli töhfə vermişdir. Ölkədə birbaşa xarici investisiyalar və Ümumi Daxili Məhsul istehsalının xalis ixrac həcminə təsiri pozitivdir. Bu iqtisadi göstəricilər arasında kointeqrasiya əlaqəsi mövcuddur.***

Çin bazar islahatlarına keçid etməklə ölkəyə birbaşa xarici investisiyaları (BXİ) cəlb etməyə başladı. Xüsusi iqtisadi zonaların (XİZ) yaradılması, investisiya münasibətlərinin tənzimlənməsi üzrə qanunverici bazanın təkmilləşdirilməsi, hüquqi və inzibati sistemlərdə şəffaflığın artırılması, mülkiyyət hüquqları baxımından yeni yanaşmanın qəbul edilməsi bu istiqamətdə tətbiq edilən uğurlu yeniliklər hesab edilir. Ümumilikdə, xüsusi iqtisadi zonalarda həyata keçirilən xarici sərmayələrin cəlbinə əsaslanan iqtisadi siyasətin uğurlu nəticələri ölkədə həyata keçirilən islahatlar prosesini sürətləndirmiş və bütünlüklə iqtisadiyyatın inkişafına yol açmışdır.

Çin 2007-ci ildə birbaşa xarici investisiyaların cəlbi üzrə dünya ölkələri arasında yeddinci yerdə qərarlaşmışdırsa, 2018-ci ildə 226 milyard dollar xarici investisiyaya malik ABŞ-dən sonra 138 milyard dollarla ikinci yerə yüksəlmişdir. Çin 2021-ci ildə də dünya üzrə BXİ daxilolmalarının ən böyük ikinci qəbuledicisi olmuşdur.




*Mənbə*: www.statista.com

**Qrafik 2. Çinə birbaşa xarici investisiya axını**

Qrafik 2-də 2011-2022-ci illərdə Çin iqtisadiyyatına cəlb olunan investisiya göstəriciləri illər üzrə milyard ABŞ dolları ifadəsində göstərilmişdir. Çinin Ticarət Nazirliyi tərəfindən açıqlanan məlumatlar onu ifadə edir ki, 2022-ci il üzrə ölkəyə birbaşa xarici investisiya axını ümumi olaraq yavaşlamış, buna baxmayaraq artım tempi göstərmişdir. Bunun səbəbi pandemiyaya qarşı qapanmalar kimi göstərilir.

Tədqiqatlar Çində inkişafın əsas amilləri kimi ÜDM, xarici investisiya və ticarət göstəricilərinin arasında əlaqənin mövcudluğunun araşdırılmasını zəruri edir ki, bu istiqamətdə ekonometrik qiymətləndirmələr 2000-2021-ci illəri əhatə edən statistik məlumatlar əsasında Yohansen kointeqrasiya yanaşmasından istifadə olunmaqla aparılmışdır. Qiymətləndirilməsi aparlan ekonometrik model (8) aşağıda verilmişdir:

$$LN(\text{İXRAC}) = \beta_0 + \beta_1 * Ln(\text{ÜDM}) + \beta_2 * LN(\text{BXİ}) + u_t \qquad (8)$$

Qiymətləndirilmələr aparılacaq modelin əsas dəyişənləri ÜDM həcmini əks etdirən ÜDM və birbaşa xarici investisiyaların həcmini əks etdirən BXİ dəyişənləridir. Modeldə asılı dəyişən xalis ixracı əks etdirən İXRAC dəyişənidir. Aparılan qiymətləndirmələrdə,

PP(Phillps-Perron) testi üzrə modelin dəyişənləri səviyyədə qeyri-stasionar hesab edilir. Ancaq, dəyişənlər birinci tərtib fərqlərdə stasionardır və beləliklə dəyişənlərin I(1) olması Yohansen kointeqrasiya yanaşmasını tətbiq etməyə imkan verir. Modeldə avtokorrelyasiya, dəyişən varians və normallıq problemi olmayan 3-cü gecikmə ölçüsü istifadə olunur.

**Cədvəl 1. Yohansen kointeqrasiya testi nəticələri**

| Hipotez Kointeqrasiya yoxdur | Eigen dəyəri | İz statistikası | Kritik dəyərlər | Prob.** |
|---|---|---|---|---|
| Heç bir* | 0.817065 | 53.04119 | 29.79707 | 0.0000 |
| Ən çox 1 * | 0.565288 | 20.76730 | 15.49471 | 0.0073 |
| Ən çox 2 * | 0.228905 | 4.938930 | 3.841465 | 0.0263 |
| | 0.817065 | 53.04119 | 29.79707 | 0.0000 |

*Mənbə:* Müəllifin hesablaması əsasında tərtib olunmuşdur.

Cədvəl 1-də Yohansen kointeqrasiya metodu ilə qiymətləndirmə nəticələri verilmişdir. Test nəticələrinə əsasən $H_0$ hipotezi kimi qoyulmuş "Dəyişənlər arasında kointeqrasiya əlaqəsi yoxdur" hipotezi rədd edilir və modeldə dəyişənlərin arasında kointeqrasiya əlaqəsinin 95%-lik əminliklə mövcud olduğu nəticəsi alınır. Nəticə onu ifadə edir ki, Çin iqtisadiyyatında Ümumi Daxili Məhsul, birbaşa xarici investisiyalar və xalis ixrac həcmləri arasında kointeqrasiya əlaqəsi mövcuddur.

Bu dəyişənlər arasında səbəb-nəticə əlaqəsinin araşdırılması üçün isə Granger səbəbiyyət testi aparılmışdır. Burada dəyişənlərin stasionarlığının vacibliyi şərt olması səbəbiylə dəyişənlərin 1-ci tərtib fərqlərindən ibarət düzəldilmiş zaman sıraları üzərində analizlər aparılmış və nəticələr cədvəl 2-də əks olunmuşdur. Burada 95%-lik əminliklə ÜDM-in və birbaşa xarici investisiyaların həm ayrılıqda, həm də birlikdə xalis ixracın birbaşa səbəbi olduğu nəticələri əldə edilir. Aparılan qiymətləndirmələr Çində xalis ixracın

artımına səbəb olan amillərin mövcudluğunu ortaya qoyur və əhəmiyyətli hesab edilir.

**Cədvəl 2. Granger səbəbiyyət testi nəticələri**

| Asılı dəyişən DLNIXRAC | | | |
|---|---|---|---|
| | Xi-kvadratı | df | Prob. |
| DLNUDM | 9.421807 | 3 | 0.0242 |
| DLNBXİ | 14.18677 | 3 | 0.0027 |
| Ümumilikdə | 19.79960 | 6 | 0.0030 |

*Mənbə:* Müəllifin hesablaması əsasında tərtib olunmuşdur.

Dəyişənlər arasındakı təsiri ifadə edən model aşağıdakı kimi müəyyən edilmişdir:

$$LN(IXRAC) = - 4.81798 + 0.567992*LN(UDM) + \\ +0.5434*LN(BXI) - 0.0682*DUMMY2018 + [AR(1)=0.679] \quad (9)$$

(9) modelinin nəticələrinin interpretasiyasını versək, digər faktorlar sabit olduqda, Çində Ümumi Daxili Məhsul həcminin 1% artımının ölkədə xalis ixracı 0,56% artırdığını qeyd edə bilərik. Qiymətləndirilmələr zamanı ölkədə birbaşa xarici investisiyaların artımının da xalis ixrac artımına təsirinin müsbət olduğu və birbaşa xarici investisiyaların həcminin 1% artması nəticəsində xalis ixrac həcminin 0,54% artacağı nəticəsi alınmışdır. Determinasiya əmsalının $R^2 = 87\%$ olaraq müəyyənləşdirilməsi, asılı dəyişəndəki dəyişmələrin 87%-nin əsas dəyişənlər hesabına baş verməsini ifadə edir, yəni xalis ixrac həcminin dəyişməsində ÜDM və birbaşa xarici investisiyaların payı 87% təşkil etmişdir. Durbin-Uatson kriteriyası üzrə göstəricinin 2-yə yaxın olması (DW=1,48), modeldə avtokorelyasiya probleminin olmadığını ifadə edir. Qalıqlar üzrə aparılan diaqnostik testlər zamanı da modeldə avtokorelyasiya, heteroskedastiklik və qalıqlarda normal paylanma problemlərinin olmadığı müəyyən edilmişdir.

5. ***Çin Xalq Respublikasının həyata keçirdiyi məqsədyönlü daxili və xarici iqtisadi siyasət ölkənin sosial-iqtisadi inkişafına və qlobal iqtisadi güc mərkəzinə çevrilməsinə səbəb olmuşdur*.**

Çinin qlobal iqtisadi güc mərkəzinə çevrilməsi daxili iqtisadi islahatlar və struktur dəyişiklikləri, sənayenin inkişafı, ixracın və investisiyaların artımı ilə bağlı olmuşdur. Çinin dünyanın ikinci ən böyük iqtisadiyyatına və qlobal ticarət gücünə çevrilməsi, ölkənin dünya iqtisadiyyatından asılılığını tədricən azaltmış, dünyanın Çin iqtisadiyyatından asılılığını isə artmışdır. Çinin iqtisadi yüksəlişi uğurlu daxili və xarici siyasətin nəticəsi hesab edilir ki, bu yüksəlişin daxili və xarici amilləri mövcuddur. Uğurlu iqtisadi islahatların həyata keçirilməsi, istehsal və ixrac yönümlü inkişaf, infrastrukturun inkişafı, texnoloji və innovativ inkişaf, siyasi sabitlik və mərkəzləşdirilmiş idarəetmə sisteminin mövcudluğu, istehsalın rəqabətqabiliyyətliliyinin artırılması kimi amillər inkişafın daxili amilləri kimi müəyyən edilir. İqtisadi yüksəlişin xarici amilləri isə iqtisadi qloballaşma və inteqrasiya proseslərində yaxından iştirak, ÜTT-yə üzvlük, regional və beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi, investisiya münasibətləri üzrə əməkdaşlıq, beynəlxalq bazarlarla sıx əlaqə, iqtisadiyyatın beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması kimi müəyyənləşdirilmişdir.

Çinin ASEAN, "Regional Hərtərəfli İqtisadi Əməkdaşlıq Sazişi (RCEP)", BRİCS çərçivəsində əməkdaşlığı, AB ölkələri, "Bir kəmər, bir yol" layihəsinin əhatə etdiyi ölkələrlə iqtisadi əlaqələrinin genişləndirilməsi də onun xarici siyasətinin uğurlu istiqamətləri hesab edilir. Çinin müasir mərhələdə tətbiq etdiyi "Beşillik inkişaf planları", "Qərb regionlarının inkişafı" layihəsi, "Qonşuluq diplomatiyası" strategiyası, "İslahatlar və Açıq qapı" siyasəti, "Bir kəmər, bir yol" beynəlxalq təşəbbüsü və digər layihələrin reallaşdırılması, regional və beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı ölkə iqtisadiyyatının və xarici iqtisadi əlaqələrin inkişafına əhəmiyyətli təsir göstərir.

"Bir kəmər, bir yol" rəsmi Pekinin mühüm xarici siyasəti hesab edilir və ölkə rəhbərliyinin əsas məqsədlərindən birinə çevrilmişdir. Avropa və Asiyanı əlaqələndirən yeni iqtisadi dəhliz olması planlaşdırılan layihə ÇXR üçün siyasi və iqtisadi qazanclar təmin edə

biləcək geniş bir strategiya hesab edilir. Bu layihə çərçivəsində Çin regionda əhəmiyyətli bir gücə çevrilməyi qarşısına məqsəd qoymuşdur. Bu strategiya Çinin son dövrdə ABŞ-nin birmərkəzli dünya anlayışına əks olaraq yürütdüyü siyasəti də dəstəkləyir.

Çində davamlı olaraq müşahidə olunan sürətli iqtisadi artım həm də enerjiyə artan tələbatla müşayiət olunur ki, bu özlüyündə ölkəni qlobal enerji bazarında əsas aktorlardan birinə çevirir. Dünyanın ən böyük enerji istehlakçısı olan Çinin həyata keçirdiyi mühüm strategiyalar neft ehtiyatlarının kəşfiyyatı, hasilat və logistika xidmətlərinə investisiyalar da daxil olmaqla enerji təchizatı strategiyalarını da əhatə edir. Bu istiqamətdə mövcud olan əsas problemlər artan enerji çatışmazlığı və ətraf mühitin çirklənməsi problemləridir ki, bu, Çində dayanıqlı inkişaf aspektlərinə diqqətinin artırılmasını tələb edir.[6] Çinin artan enerji tələbi və ekoloji davamlılıq məqsədlərinə uyğun olaraq formalaşan "Enerji strategiyası" enerji təhlükəsizliyinin təmin edilməsi, bərpa olunan enerji mənbələrinə keçidin və yaşıl iqtisadiyyata transformasiyanın təşviqini ehtiva edir. Bu transformasiya ölkəni bu sahədə lider mövqeyə gətirərək beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırır, qlobal ekoloji problemlərin həllinə mühüm töhfə verir.

**6. *Azərbaycanın Çinlə iqtisadi əməkdaşlığı, "Bir kəmər və bir yol" təşəbbüsündə tərəfdaş mövqeyinin olması ölkəmiz üçün yeni imkanlar yaradır. Gələcəkdə iki ölkə arasında ticarət, investisiya, nəqliyyat-logistika sahələrində əməkdaşlıq davam etdirilməlidir*.**

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində Çin və Azərbaycan arasındakı əməkdaşlıq daha da genişləndirilir və ölkələr arasındakı əlaqələr inkişaf edir. İki ölkə arasında bəzi əməkdaşlıq sənədləri, eləcə də "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında ikitərəfli iqtisadi əməkdaşlığın təşviqi üzrə Anlaşma Memorandumu", "Azərbaycan

[6] Guliyev, M., Agarzayev, A., Huseynova, L., Huseynli, O. Strategy of Chinese energy companies in the world market of oilfield services and logistics services: Regional aspects: Renewable Sustainable Energy – 2024. – 16 p.

Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanmışdır. Son adı çəkilən anlaşmaya əsasən 2015-2017-ci illər ərzində Azərbaycanda "İpək Yolu İqtisadi Kəməri" təşəbbüsü çərçivəsində 54 milyon ABŞ dolları həcmində beş layihənin reallaşdırılması nəzərdə tutulmuşdu ki, "Bakı-Tbilisi-Qars Dəmir Yolu Layihəsi", "Ələt qəsəbəsində Yeni Xəzər dəniz limanı və azad ticarət zonasının yaradılması" layihələri də bu beş layihə arasında yer almışdır.[7]

Ölkələr arasında ikitərəfli münasibətlər müxtəlif istiqamətlərdə çoxşaxəli inkişaf etsə də, iqtisadi tərəflər xüsusilə önə çəkilməkdədir. Çin Xalq Respublikasının "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ölkələrdən biri kimi Tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan təşəbbüs çərçivəsində "Bakı-Tiblisi-Qars Dəmiryol Layihəsi", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi" kimi layihələri reallaşdırır ki, bunlar Transxəzər Beynəlxalq Şərq-Qərb Ticarət və Nəqliyyat dəhlizinin tərkib hissəsidir. Ölkəmizin bu layihədə əsas aktor olaraq Çinlə Avropa arasında əlaqələndirmə funksiyasını həyata keçirməsi regionda inkişafı üçün xüsusilə əhəmiyyətlidir və yeni imkanlar yaradır.[8]

Azərbaycanla Çin arasında investisiya əməkdaşlığı xüsusilə inkişaf edir. 2007-2018-ci illərdə Çinin Azərbaycana yatırdığı sərmayədən təxminən iki dəfə çox Azərbaycan Çinə investisiya qoyuluşları etmişdir. Həmin dövr üzrə Azərbaycan Çinin qiymətli kağızlarına 1,7 milyard ABŞ dolları, Çinin Azərbaycan iqtisadiyyatına 800 milyon ABŞ dolları investisiya yatırmışdır. 2019-cu ilin aprelində Azərbaycan və Çin qeyri-neft sektoru üzrə ümumi dəyəri 821 milyon ABŞ dolları həcmində olan on yeni investisiya layihəsi imzalanmışdır ki, bu layihələrdən bəziləri kimi, Çinin Continental Bridge Beynəlxalq Logistika Şirkəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında Strateji Tərəfdaşlıq Sazişi, eləcə də "China

[7] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı https://president.az/az/articles/view/17137

[8] Cəfərli, Ş. Azərbaycan-Çin münasibətləri // Baku Research İnstitute 2020. https://bakuresearchinstitute.org/azerbaijan-china-relations/

Telecom” və “AzərTelecom” arasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə strateji əməkdaşlıq sazişi, Sumqayıt Kimya Sənaye Parkında şin istehsalı zavodunun yaradılması, Kürdəmirdə modern istixana kompleksinin tikintisi, Quba, Göyçay və Xaçmazda kənd təsərrüfatı və logistik istiqamətli sənaye parklarının yaradılması, “Azerbaijan Digital Hub” layihəsi çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin formalaşdırılması, Orta Koridor vasitəsilə Azərbaycandan keçməklə digər ölkələrə konteynerlərin daşınması, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin Çinə ixracı istiqamətlərində də əməkdaşlıq sənədləri imzalanmışdır.[9] Bu sazişlər Çin-Mərkəzi Asiya-Qərbi Asiya-Avropa iqtisadi koridoru vasitəsilə yüklərin daşınmasının rasionallaşdırılmasına xidmət edir.

İki ölkə arasında ticarət əlaqələri də inkişaf etməkdədir və Azərbaycanın ticarət tərəfdaşları arasında Çinin rolu illər üzrə artmışdır. 2019-cu il üzrə Çinin Cənubi Qafqaz regionu ölkələri ilə ticarətində Azərbaycanın payı 40%-dən artıq olmuşdur. Həmin il Azərbaycanın Çinə ixracı 752,2 milyon ABŞ dolları olmaqla son illərin rekord göstərici hesab olunur ki, ixrac malları əsasən xam neft və neft-kimya sənayesi üzrə məhsullardır. Son 25 il ərzində Azərbaycanın Çinə ixracı artmışdır ki, 1995-ci ildəki 2,47 milyon dollarlıq ixrac həcmi 2020-ci ildə 432,8 milyon ABŞ dollarına qədər yüksəlmişdir. 2022-ci ildə Azərbaycanın Çinə ixracı 72,7 milyon ABŞ dolları, Çindən idxalı 2,086 milyard ABŞ dolları təşkil etmişdir.

Çinlə iqtisadi əməkdaşlıq ölkəmiz üçün infrastrukturun inkişafı, nəqliyyat-logistika sahəsində infrastruktur investisiyalarının cəlbi, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində mühüm mərkəzə çevrilməsi; ticarət və investisiya əlaqələrinin inkişafı, Çin və Asiya ölkələri ilə ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, regional inteqrasiyanın inkişafı və Azərbaycan iqtisadiyyatı üçün yeni biznes imkanları kimi töhfələr verə bilər.

[9] South Caucasus and Central Asia: Belt and Road Initiative Azerbaijan Country Case Study // – Finance and Institutions (EFI) World Bank , – 2020.

**7. *Azərbaycan və Çin iqtisadi modellərində oxşar xüsusiyyətlərin mövcudluğu baxımından Çin iqtisadi modelinin müsbət nəticələrinin, xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti, innovativ istehsalın inkişafı, ixrac və innovasiyalara əsaslanan iqtisadiyyatın qurulması istiqamətləri üzrə Çin təcrübəsinin ölkəmizin iqtisadiyyatına tətbiqi imkanları mövcuddur.***

Sosial-iqtisadi inkişaf və rəqabətqabiliyyətliliyin yüksəldilməsi məqsədi ilə Çin Xalq Respublikasında tətbiq edilən “Beşillik planlar” və digər islahatların müsbət nəticələri hər iki ölkənin iqtisadi modellərinin uyğun xüsusiyyətlərinin mövcudluğu baxımından Azərbaycan iqtisadiyyatında da tətbiq edilə bilər. Azərbaycanda da inkişaf yönümlü layihələr, sosial-iqtisadi inkişaf proqramları həyata keçirilir ki, bunlar yeni inkişaf modelinin formalaşdırılmasına xidmət edir, rəqabətqabiliyyətli istehsalın, ixracyönümlü və gəlirli iqtisadiyyatın mövcudluğunu nəzərdə tutur. Çin təcrübəsi əyani olaraq göstərir ki, milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin artırılması imkanları XİZ kimi strukturların yaradılması və inkişafı mexanizmlərinin səmərəliliyindən birbaşa asılıdır. XİZ istehsal artımını və xarici ticarətin inkişafını təşviq edir. Çinin inkişafa səbəb olmuş bu təcrübəsinin, XİZ-in yaradılması və bu zonalarda fəaliyyətin tənzimlənməsi mexanizmlərinin bu istiqamətdə təcrübəsi olan Azərbaycan üçün tətbiqi investisiyaların cəlbediciliyinin artırılması, infrastrukturun və ticarətin inkişafı, yeni iş yerlərinin yaradılması, texnologiya transferi istiqamətlərində töhfə verə bilər. Burada xüsusilə investisiya münasibətlərinin tənzimlənməsi üzrə hüquqi bazanın təkmilləşdirilməsi, belə zonalarda texnoloji innovasiyaların, infrastruktur və texnologiyalara investisiyaların dəstəklənməsi, xüsusi vergi güzəştləri və imtiyazların tətbiqi diqqət mərkəzində saxlanmalıdır.

Çin, iqtisadiyyatını modernləşdirmək və məhsuldarlığı artırmaq məqsədilə iqtisadiyyatı investisiya və ixraca əsaslanan modeldən ixrac və innovasiya əsaslı modelə istiqamətləndirməyə çalışır. İxraca və innovasiyalara əsaslanan iqtisadi böyümə modelini inkişaf etdirən ÇXR tədqiqat və inkişaf xərclərinin artırılması, ölkədə elm və texnologiyanın inkişafı, texnoloji nailiyyətlərin tətbiqi ilə istehsalın və yüksək texnoloji məhsulların ixracının artırılması istiqamətlərində

mühüm nailiyyətlər əldə etmişdir. Azərbaycan da Çinin bu istiqamətdə təcrübəsindən yararlanmaqla, elmi parkların yaradılması, tədqiqat-inkişaf fəaliyyətlərinin genişləndirilməsi, qeyri-neft sektoruna investisiyaların cəlbediciliyinin artırılması, xüsusilə bu sektorda ixraca və innovasiyalara əsaslanan istehsalın artımı və ixrac yönümlü sektorlara dəstək mexanizmlərinin inkişafına nail ola bilər.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat zamanı qeyd olunan müddəalar əsasında konkret nəticələrə gəlinmişdir ki, bunlar aşağıdakılardan ibarətdir:

- Çin iqtisadiyyatı iqtisadi islahatların başlanmasına qədərki dövrdə qapalı iqtisadiyyat olmuş, 1978-ci ildən etibarən yeni iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi Çində mövcud qapalı sosialist iqtisadiyyatın açıq qloballaşan iqtisadiyyata çevrilməsinə zəmin yaratmışdır;
- Ölkədə “Sosial bazar iqtisadi modeli” tətbiq olunmağa başlamışdır ki, bu model iqtisadiyyatda dövlət sektorunun tənzimləyici rolunun mövcud olduğu bazar iqtisadi modeli kimi ifadə edilir və əsas vəzifəsi ictimai mülkiyyətin mövcud olduğu şəraitdə bazar iqtisadiyyatına keçidin səmərəliliyinin təmin edilməsi olmuşdur;
- Çində iqtisadi artıma və ölkə iqtisadiyyatının inkişafına təsir edən əsas amillər həyata keçirilən sosial-iqtisadi islahatlar və tətbiq edilən sosial-iqtisadi modelin uğurlu nəticələri, liberallaşdırma tədbirləri və açıq iqtisadiyyata keçid, siyasi sistem və liderlik, xüsusi iqtisadi zona və azad ticarət zonaları tipli strukturların yaradılması, ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların həcmi, ÜTT-yə üzvlük amili, yüksək ixrac həcmi və tədqiqat inkişaf fəaliyyətlərinin genişləndirilməsi kimi müəyyən olunmuşdur;
- Tədqiqat işində Çində xalis ixracın artımına təsir edən faktorlar qiymətləndirilmiş, Ümumi Daxili Məhsul, xalis ixrac və birbaşa xarici investisiyalar arasında əlaqənin mövcudluğunun müəyyən edilməsi kontekstində Yohansen kointeqrasiya metodu ilə aparılan ekonometrik

qiymətləndirilmələrə əsasən bu dəyişənlər arasında əlaqənin mövcud olduğu nəticəsinə gəlinmişdir;

- Tədqiqat işində Çində Ümumi Daxili Məhsul, xalis ixrac və birbaşa xarici investisiyalar arasında əlaqənin mövcudluğunun müəyyən edilməsi kontekstində Granger səbəbiyyət metodu ilə aparılan ekonometrik qiymətləndirilmələrə əsasən 95%-lik əminlik dərəcəsində ÜDM-in və birbaşa xarici investisiyaların həm ayrılıqda, həm də birlikdə xalis ixracın birbaşa səbəbi olduğu nəticələri müəllif tərəfindən əldə edilmişdir;

- Çində xarici ticarətin inkişafı, xalis ixrac həcminin artırılması ölkənin iqtisadi inkişafına əhəmiyyətli müsbət təsir göstərmişdir və ÜDM-in cari artımında müsbət ticarət balansının mövcudluğu şəraitində xarici ticarət müsbət multiplikativ rola malikdir;

- Çin, iqtisadiyyatını modernləşdirmək və məhsuldarlığı artırmaq məqsədilə iqtisadiyyatı investisiya və ixraca əsaslanan modeldən ixrac və innovasiya əsaslı modelə istiqamətləndirməyə çalışır. Ölkədə milli iqtisadiyyatın inkişafının stimullaşdırıcı qüvvəsi hesab edilən innovasiyaların inkişafı Çində rəqabətqabiliyyətliliyin yüksəldilməsi, eləcə də istehsalın rəqabət qabiliyyətliliyinin artırılmasının əsaslarını təşkil edir;

- Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli iqtisadi münasibətlər və müxtəlif istiqamətlərdə çoxşaxəli olaraq inkişaf edir. Ölkələr arasında əməkdaşlığın əsas istiqamətləri kimi ticarət, investisiya, nəqliyyat və logistika istiqamətlərində əməkdaşlıq kimi müəyyən edilir.

Dissertasiya işində aparılan tədqiqat üzrə qeyd edilən nəticələrə əsaslanaraq aşağıdakı təklif və tövsiyələri irəli sürə bilərik:

- Çinin xüsusi iqtisadi zonaların yaradılması və belə zonalarda fəaliyyətin tənzimlənməsi mexanizmlərinin bu istiqamətdə təcrübəsi olan Azərbaycan üçün tətbiqi və bu proseslərin genişləndirilməsi investisiyaların cəlbediciliyinin artırılması, infrastrukturun və ticarətin inkişafı, yeni iş yerlərinin yaradılması, texnologiya transferi istiqamətlərində töhfə verə bilər;

- İxraca və innovasiyalara əsaslanan iqtisadi böyümə modelini inkişaf etdirən ÇXR tədqiqat xərclərinin artırılması, ölkədə elm və texnologiyanın inkişafı, texnoloji nailiyyətlərin tətbiqi ilə istehsalın və

yüksək texnoloji məhsulların ixracının artırılması istiqamətlərində mühüm nailiyyətlər əldə etmişdir. Azərbaycan da Çinin bu istiqamətdə təcrübəsindən yararlanmaqla, elmi parkların yaradılması, tədqiqat-inkişaf fəaliyyətlərinin genişləndirilməsi, qeyri-neft sektoruna investisiyaların cəlbediciliyinin artırılması, ixraca və innovasiyalara əsaslanan istehsalın artımı, eləcə də ixrac yönümlü sektorlara dəstək mexanizmlərinin inkişafına nail ola bilər və bu istiqamətlərdə Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsi potensialı mövcuddur.

**Dərc olunmuş elmi əsərlərin siyahısı:**


1. Rüstəmov, X.Q. Çinin yeni iqtisadi inkişaf strategiyasının spesifik xüsusiyyətləri // – “İpək yolu” jurnalı, – 2019. №4, – s. 64-71. Bakı, Azərbaycan.
2. Rüstəmov, X.Q. Çində xüsusi iqtisadi zonaların inkişafının qiymətləndirilməsi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-ci ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı”, – Bakı, Azərbaycan: – 29-30 aprel, – 2019, – s. 592-595.
3. Rüstəmov, X.Q. “Heydər Əliyev və Azərbaycan-Çin münasibətləri” // “Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq, Dövlətçilik və Diplomatik İrsi” mövzusunda elmi-praktiki konfrans, – Bakı, Azərbaycan: – 7-8 may, – 2019, – s. 157-162.
4. Rüstəmov, X.Q., Bağırova, G.B. Çinin Ümumdünya Ticarət Təşkilatına üzvlüyünün iqtisadi nəticələrinin analizi // – “İpək yolu” jurnalı, – 2020. №4, – s. 12-19. Bakı, Azərbaycan.
5. Rüstəmov, X.Q. Çində mühasibat uçotu standartlarının tətbiqi problemləri // “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” mövzusunda beynəlxalq konfrans, – Sumqayıt, Azərbaycan: – 8-9 iyul, – 2020, – s. 121-126.
6. Rüstəmov, X.Q. Çin iqtisadiyyatında ixrac və yüksək texnoloji mallar ixracının iqtisadi böyüməyə təsiri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların V Beynəlxalq Elmi Konfransı”, – Bakı, Azərbaycan: – 29-30 aprel, – 2021, – s. 569-573

7. Rüstəmov, X.Q. Covid-19 pandemiyasının Çin iqtisadiyyatına təsirinin qiymətləndirilməsi // – “Audit” jurnalı, – 2021. №4, – s. 79-87. Bakı, Azərbaycan.

8. Rüstəmov, X.Q. Çinde ekonomik reformların uygulanması ve sonuçlarının incelenmesi // İstanbul Gedik Universiteti “3. Uluslararası İstanbul Modern Bilimsel Araştırmalar Konfransı”, – İstanbul, Türkiyə : – 29-30 aprel, – 2021, – s. 271-276.

9. Rüstəmov, X.Q. Çində məşğulluq siyasətinin icra edilməsi mexanizmləri // – “İpək yolu” jurnalı, – 2022. №2, – s. 71-87. Bakı, Azərbaycan.

10. Rustamov, K.G. The modern stage in the USA-China global economic competition // – “Modern Science: actual problems of theory and practice” journal, – 2022. №7, – s. 71-83. DOI 10.37882/2223–2974. Moskva, Rusiya.

11. Rüstəmov, X.Q. Çin iqtisadiyyatında birbaşa xarici kapital investisiyaları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransı”, – Bakı, Azərbaycan: – 29-30 aprel, – 2022, – s. 251-253.

12. Rüstəmov, X.Q. Çin iqtisadiyyatında rəqabətin davamlılığını təmin edən amillər // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Keyfiyyət təminatı rəqabət qabiliyyətli iqtisadi inkişafın əsas amili kimi” mövzusunda gənc tədqiqatçıların beynəlxalq elmi-praktiki konfransı, – Bakı, Azərbaycan: – 5 may, – 2022, – s. 451-453.

13. Rustamov, K.G. Problems of unemployment in the Chinese economy // I International Scientific and Practical Conference “Society and science: interconnection”, – Porto, Portugal: – 26-28 november, – 2022, – s. 32-34.

14. Rustamov, K.G. Contemporary trends in Chına’s foreign trade // XIII International Scientific and Practical Conference “Scientific research in XXI century”, – Ottawa, Canada.: – 6-8 december, – 2022, – s. 37-40.

15. Rustamov X.Q., Daşdəmirova T.Z. Azərbaycan və Çin arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri // – Journal of Baku Engineering University, – 2023. №1, – s. 57-65. Bakı, Azərbaycan.

Dissertasiyanın müdafiəsi 1 noyabr 2024-cü il tarixində saat $15^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.09.2024.
Format: A5
Həcmi 38602 işarə
Tiraj 100.